**Azərbaycan Respublikası ilə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik arasında Nüvə silahının yayılmaması haqqında Müqavilə ilə əlaqədar təminatların tətbiq edilməsi barədə Sazişin Əlavə Protokolunu Azərbaycan Respublikasının adından imzalamaq səlahiyyətinin verilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. Azərbaycan Respublikası ilə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik arasında Nüvə Silahının yayılmaması haqqında Müqavilə ilə əlaqədar təminatların tətbiq edilməsi barədə Sazişin Əlavə Protokolunu Azərbaycan Respublikasının adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Vaqif İsmayıl oğlu Sadıqova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin Azərbaycan Respublikasının adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Vaqif İsmayıl oğlu Sadıqova verilməsi barədə Atom Enerjisi üzrə Beynəlxalq Agentliyə müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 2 iyul 2000-ci il**

**№ 460**

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2944.